# ERKƏN ÖYRƏNMƏ ÜÇÜN İMKANLAR

## ERKƏN STİMULLAŞDIRMA

- Uşaqla valideyn arasında ilk ünsiyyət baxışla başlayır. Körpənin baxışı, mimikası, səsi və ağlaması onun ətrafla ünsiyyət vasitəsidir. Körpənin nə hiss etdiyini və ya nə istədiyini anlamağa çalışın, onun istəklərini cavabsız buraxmayın.

- Körpənizə gülümsəyin, ona toxunun, qucaqlayın, onunla göz təması qurun, onu sevdiyinizi bildirin. Bu zaman uşaq özünü daha rahat, inamlı və təhlükəsiz hiss edir, aranızda bağlılıq yaranır. Körpəni qucaqlayarkən, öpərkən və sığallayarkən dəri vasitəsilə ötürülən müsbət hisslər uzun müdddət uşağın beynində saxlanılır. Körpənizlə vaxt keçirin, onunla oyun oynayın. İlk aylarda inkişafetdirici oyunlar körpənin hiss üzvlərini inkişaf etdirir. Uşaqlar oyun zamanı dünyanı kəşf edir, insanlar arasında olan qarşılıqlı münasibəti öyrənir, öz fikirlərini ifadə edirlər. Oyuncaqlar uşağın yaşına uyğun və təhlükəsiz olmalıdır. Evdə olan əşyalardan oyuncaq kimi istifadə edin və ya sadə oyuncaqlar düzəldin. Uşağın oyuncağı özünün seçməsinə imkan verin.

- Körpə sizin hiss və emosiyalarınız vasitəsilə dünyanı dərk edir. Müxtəlif emosiyaları göstərən mimikalardan istifadə edin, danışakən səsinizin intonasiyasını tez-tez dəyişin.



Bu vəsait "Regional İnkişaf" İctimai Birliyi tərəfindən icra olunan "Erkən Uşaqlıq Dövründə İnkişaf" üzrə Milli Kampaniya çərçivəsində hazırlanmışdır. Kampaniyanın maliyyə dəstəkçisi Avropa İttifaqı, tərəfdaşı isə BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyidir. Vəsait heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

## ERKƏN STİMULLAŞDIRMA



- Gündəlik həyatda etdiyiniz hərəkətləri dillə deyin. Saymağı öyrətmək üçün paltarları sayın, yeməklərin dadını deyin, bərk, yumşaq və ya duru olmasını öyrədin, müxtəlif teksturalı əşyalara toxunmasına imkan verin.

- Körpənizlə danışın, tez-tez mahnılar oxuyun. Körpə hələ danışa və oxuya bilməsə də, səsəri duyur və ayırd edir. Körpə ilə danışaraq, onu səslər və sözlərlə tanış edərək uşağın nitq və ünsiyyət bacarıqlarını, eşitmə qabiliyyətini inkişaf etdirir, sağlam beyin inkişafını dəstəkləyir.

- Körpənizə kitab oxuyun. Uşaq üçün kitab oxumaq uşağın nitqini və dil vərdişlərini inkişaf etdirməkə yanaşı, oxumağa maraq yaradır.

Körpənizin boyun, bel və qol əzələlərini inkişaf etdirmək üçün göbək sağaldıqdan sonra hər gün əvvəl 1 dəqiqədən başlayaraq, sonra gündə 2-3 dəfə 3-5 dəqiqə ərzində qarnı üstə  qoyun. Bu zaman danışın, uşağı rəngli oyuncaqlarla əyləndirin və ona  nəzarət edin.

Uşağın ətrafı araşdırması, hər gün yeni bir şey kəşf etməsı üçün rahat və təhlükəsiz mühit yaradın, oyun sahəsində iti, kiçik və ağır əşyaların olmamasına diqqət edin.

Şəxsi nümunə göstərin. Uşaqlar böyüklərin, xüsusən valideynlərin hərəkət və davranışlarını təkrarlayır.

# ERKƏN ÖYRƏNMƏ ÜÇÜN İMKANLAR

## KİTABLAR VƏ MƏŞĞƏLƏLƏRLƏ ERKƏN ÖYRƏNMƏYƏ TƏŞVİQ ETMƏK

**Kitaba maraq aşılamaq:**
Kitab körpə üçün hələ oyuncaqdır. İlk aylarda körpə kitabı çeynəmək, vurmaq istəyir. Şəkillərə diqqətli baxmaq qabilliyyəti hələ məhduddur. 1 yaşında körpə kitabı açıb-bağlamaq istəyir, qısa müddət şəkillərlə, sonra isə mətnlərlə maraqlanır.



**Kitabla ilk təmasın faydaları:**
- Körpə üçün valideyni ilə kitab seyr etmək və oxumaq əyləncəlidir. Həmin anlarda o, valideyninə yaxınlaşır və onların səsini eşidir. Bu, körpə ilə valideyni arasında bağlantı yaranmasına kömək edir;
- Hər gün gündüz və gecə yatmazdan öncə oxumaq üçün bəlli vaxt ayırmaq valideynin gündəlik həyatını asanlaşdırır, uşağı sakitləşdirməyə və yatmağa hazırlamağa kömək edir;
- Mütaliə zamanı qucaqlamaq körpənin özünü təhlükəsiz hiss etməsinə, isti münasibətə və bağlılığına kömək edir;
- Kitabın şəkillərinə işarə edərkən əşyaları tanımağı, onları adlandırmağı öyrənir;
- Körpə üçün kitab oxuyarkən o, ana dilini, hamiləlik dövründə eşitdiyi səsləri öyrənir, yeni sözlər kəşf edir. Bu, körpənin nitq inkişafına kömək edir;
- Kitab oxumaq əyləncə və zövq mənbəyinə çevrilir;
- Kitab uşağa xəyal qurmağa və öz maraqlarını inkişaf etdirməyə kömək edir;
- Uşaq kitabla necə davranmağı öyrənir;
- Yazının əsaslarını kəşf edir: soldan sağa oxunur, səhifələri çevrilir. Uşaq rənglərlə, rəqəmlərlə tanış olur;
- Mütaliə edən valideyn körpə üçün bir oxucu modeli ola bilər.

Bu vəsait "Regional İnkişaf" İctimai Birliyi tərəfindən icra olunan "Erkən Uşaqlıq Dövründə İnkişaf" üzrə Milli Kampaniya çərçivəsində hazırlanmışdır. Kampaniyanın maliyyə dəstəkçisi Avropa İttifaqı, tərəfdaşı isə BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyidir. Vəsait heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

## KİTABLAR VƏ MƏŞĞƏLƏLƏRLƏ ERKƏN ÖYRƏNMƏYƏ TƏŞVİQ ETMƏK

**Körpəyə kitab oxumaq üçün tövsiyələr:**
- Körpələr üçün eyni vaxtlarda, mütəmadi olaraq bir neçə dəqiqə ucadan mütaliə edilir;
- Bütün kitabı oxuyub qurtarmaq vacib deyil. Körpənin xoşladığı səhifələrə yenidən diqqət yetirmək lazımdır;
- Müxtəlif xarakterlər üçün müxtəlif səslər çıxararaq, səsin tonunu yüksəldə və ya aşağı endirərək ifadəli oxumaq körpədə maraq oyadır;
- Bir müddətdən sonra mütaliəni dayandıraraq suallar vermək, şəkillərə və ya mətnə şərhlər vermək olar (Pişik haradadır? Budur o! Nə qəşəng qara pişikdir.). Körpə hələ cavab verməyə bilər, lakin bu, sonradan cavab vermək üçün bazadır.



**Körpələrə oxumaq üçün kitab seçərkən bunları nəzərə almaq lazımdır:**
- Karton albomları olan kitablar körpənin rəftarına  yaxşı müqavimət göstərir;
- Tekstil kitablar, toxunarkən xüsusi teksturaları olan, arxa fonda iri sadə rəngli şəkilləri olan, qatlanmış formada hazırlanan və ya sürpriz üçün açılan qapaqları olan kitablar məsləhətlidir;
- Körpələr üçün kitablarda sadə, təkrarlanan mətnlər və aydın şəkillər olmalıdır;
- Körpələr mahnılar və şeirlər olan kitabları dinləməyi xoşlayırlar;
- İstənilən yaş dövründə olan uşaqlar onların sevdikləri və tanıdıqları insanların şəkillərindən olan fotoalbomları xoşlayır.

